

# Qəbələ: Azərbaycanın dünyaya açılan pəncərəsi

*“Qəbələ Azərbaycanın qədim torpağıdır. Hələ eramızdan əvvəl müxtəlif yazılı mənbələrdə Qəbələnin adı çəkilir. Dünya tarixində Qəbələnin özünəməxsus yeri var. Bu, bizim böyük sərvətimizdir. Biz öz tarixi irsimizə həmişə böyük hörmət və diqqətlə yanaşmalıyıq. Bu baxımdan, Azərbaycan tarixində, Azərbaycan keçmişində və bu günündə Qəbələnin rolu çox mühüm və önəmlidir”.*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Azərbaycan ikinci dəfə öz müstəqilliyini qazanandan sonra qədimliyi 900 illik bir dövrlə ölçülən Qəbələ. sözün həqiqi mənasında, Azərbaycanın dünyaya açılan pəncərələrindən birinə çevrilib. Onun şan-şöhrətini, iqtisadi gücünü, mənəvi zənginliyini, böyük potensialını bu pəncərədən aydın görənlər də böyük heyranlıqla bu Qəbələyə gəlir, onun qoynunda dincəlir, iqtisadiyyatından bəhrələnirlər. Görülən işlərin, qazanılan uğurların sorağı ilə rayonun qiyabi səyahətinə çıxsaq, bunu aydın görərik.

### Turizmin böyük potensialı var

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev rayona səfərlərinin birində demişdir: “Qəbələnin gözəl təbiəti burada turizmin inkişafı üçün əlverişli şərait yaradır. Burada müvafiq infrastruktur yaradılmasına, dünya standartlarına uyğun mehmanxanalar tikilməsinə, abad yollar salınmasına xüsusi diqqətlə yanaşılmalıdır”. Dövlət başçısının qarşıya qoyduğu bu vəzifə rayonda layiqincə yerinə yetirilir.

Rayon mərkəzindən 20 kilometr cənub-şərqdə Çuxur Qəbələ kəndinin şimal-şərq hissəsində Corlu və Qaraçay çaylarının suayrıcında ünvanlanan qədim Qəbələ mühüm siyasi, iqtisadi və ticarət mərkəzi kimi dünyanın Babil, Troya, Pompey, Karfagen kimi məşhur şəhərləri ilə müqayisə olunur. Bir-birindən yaraşıqlı, heyranedici təbiət mənzərələri var Qəbələnin. Nohur gölünün, Mucux və Yeddigözəl şəlalələrinin əsrarəngiz mənzərələri hamını heyran edir. Tarixi abidələri ilə də Qəbələ yaddaşlara həkk olunub. Uzun illər Qafqaz Albaniyasının paytaxtı olan Çuxur Qəbələ ərazisində aparılan arxeoloji qazıntılar zamanı tapılmış tarixi eksponatlar buradakı Qəbələ Arxeoloji Mərkəzin muzeyində saxlanılır. Tarix Diyarşünaslıq Muzeyində Qəbələnin, bütövlükdə Azərbaycanın 2500 illik tarixini əks etdirən 13 min 750 eksponat mühafizə olunur. Rayonda dövlət qeydiyyatına götürülmüş 93 daşınmaz tarix və mədəniyyət abidəsi var. Qəbələ zəngin turizm potensialına malikdir. Burada Qəbələnin və regionun turizm imkanlarını təbliğ edən turizm informasiya mərkəzi fəaliyyət göstərir. Gələn turistlər ingilis, rus, ərəb, fransız, alman dilləri üzrə bələdçi tərcüməçilərin xidmətlərindən istifadə edirlər.

Rayon turizm sənayesinin inkişafı üçün əlverişli coğrafi məkandır. Onun 19 turizm istirahət obyekti var. Rayonda 7 beşulduzlu, 2 dördulduzlu, 2 ikiulduzlu otel gələn qonaq və turistlərin istifadəsindədir. Ümumiyyətlə, rayondakı mehmanxana və mehmanxana tipli obyektlərdə bir gündə 3000 nəfərdən yuxarı turisti qəbul etmək mümkündür. Təkcə bu ilin doqquz ayında Qəbələyə gələn turistlərin sayı ötən illə müqayisədə dəfələrlə çoxdur. Dağ-xizək idmanının inkişaf etdirilməsi məqsədilə yaradılan “Tufandağ” qış-yay turizm istirahət kompleksi də həmişə yerli və xarici turistlərin xidmətindədir. Qafqaz regionunda ən gözəl əyləncə mərkəzlərindən biri kimi tanınan Qəbələ əyləncə mərkəzi heyranedici istirahət məkanlarındandır. Qəbələyə gələn hər kəs Qaraçay çayının hər iki sahilində ünvan tapan park-bulvarın möhtəşəmliyinə, zənginliyinə, əsl istirahət məkanlığına heyran olmaya bilmir. Turizm obyektlərində turistlərə dünya standartları səviyyəsində xidmət göstərilməsi üçün kadrlar hazırlanması da diqqət mərkəzindədir. Bu məqsədlə rayonda 2009-cu ildən Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi fəaliyyət göstərir.

Bəli, bu gün Qəbələ özünün sosial-iqtisadi gücündən, zəngin mənəvi həyatından, tarixinin köklərindən qidalana-qidalana daha da müasirləşib dünyaya çıxır, şöhrət zirvəsində öz yerini tutur. Qəbələ bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin ev sahibi olur. Son illər dünya siyasətçilərinin iştirakı ilə Qəbələdə keçirilən forumlar, sammitlər, beynəlxalq idman yarışları, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə təşkil edilən beynəlxalq musiqi festivalları, incəsənət sərgiləri və digər tədbirlər ölkənin, o cümlədən Qəbələnin sosial-iqtisadi inkişafının təntənəsi kimi xarakterizə oluna bilər.

Qeyd etmək lazımdır ki, bu məkanda keçirilən V Beynəlxalq Mürəbbə festivalında 22 ölkənin şirniyyatçılarının, eləcə də respublikamızın 44 şəhər və rayonunu təmsil edən mürəbbə ustaları öz məhsullarını nümayiş etdiriblər.

Qəbələ idmana qayğısı ilə də nəinki respublikada, dünyada da tanınır. Qəbələ İdman Klubunun tərkibində fəaliyyət göstərən “Qəbələ” futbol komandasında indi tək Azərbaycanın yox, hətta dünyanın da idman yarışlarının fəal iştirakçıları olan, mükafatlar qazanan futbolçular oynayırlar.

Qəbələdə Atıcılıq klubu da fəaliyyətdədir. Həmin sahə üzrə olan kompleksdə 8 meydança var.








### Güclü iqtisadiyyatının sorağı dünya bazarından gəlir

Qəbələni dünya bazarına çıxarıb şöhrət qazandıran neçə-neçə sənaye və kənd təsərrüfatı məhsulları istehsal edən müəssisələri də çoxdur. Burada bir saatda 5 ton qabıqlı fındıq və ya 1300 kiloqram təmizlənmiş fındıq ləpəsi emal etmək gücünə malik, bir dəfəyə 250 ton qabıqlı fındıq qəbul edən, qurutma sahəsi olan fındıq emalı müəssisəsi fəaliyyət göstərir. 2009-cu ildən rayonda “Beltman” markalı pianolar istehsal olunur.

“Aqro-Azərinvest” Məhdud Məsuliyyətli Cəmiyyətində artıq on dörd ildir ki, şərablar, konyaklar və tünd içkiləri istehsal olunur. Hazırda bu müəssisə bir sıra Azərbaycan şərabları ilə yanaşı, özünəməxsus yeni əmtəə nişanları olan “Qəbələ”, “İrəvan qalası”, “Basarkeçər”, “Vedibasar”, “Nazlı”, “Stariy dvorik”, “Domaşneye vino”, “Şah”, “Şamaxinskaya çariça”, “Şamaxinskaya Loza”, “Padşah” şərabları da istehsal edir. İstehsal olunan məhsulların 50 faizdən çoxu müxtəlif ölkələrə, o cümlədən əsas tərəfdaşları olan Rusiyaya, Belarusa, Ukrayna və Qazaxıstana ixrac olunur. “Aspi-Aqro” MMC-nin Qəbələnin Savalan kəndindəki “Savalan” üzüm emalı və şərab istehsalı zavodunun şöhrəti də dünyanı gəzir. Həmin müəssisə müasir texnologiyaların tətbiqinə və Azərbaycan şərabçılarının ənənələrinə əsaslanaraq üzümün yetişdirilməsindən başlamış yüksəkkeyfiyyətli şərab məhsullarının buraxılışınadək bütöv istehsal prosesini özündə cəmləşdirir. “Savalan” üzüm tingləri istehsalı və satışı üzrə dünyanın ən böyük və qabaqcıl şirkətləri olan İtaliyanın “VİVA”, “Cooperativi Rausedo”, “VCR” və Fransanın “GONTARD”, “FRERES” şirkətləri ilə sıx əlaqə yaratmışdır. Zavod həmin şirkətlərin mütəxəssislərinin məsləhət və tövsiyələri əsasında Qəbələnin nadir iqlim şəraitinə malik lap qədimlərdən şərabçılıqla məşğul olunan ünvanında, Böyük Qafqazın ətəklərində Savalan vadisində böyük üzüm plantasiyaları salmağa müvəffəq olmuşdur. Bu gün “Savalan” da 18 çeşiddə istehsal olunan məhsullar Çin, Yaponiya, Rusiya, Hollandiya, Almaniya, Fransa, Türkiyə, Ukrayna, Belarus kimi dövlətlərə göndərilir.

Gilan Qida Şəhərciyindəki, meyvə şirələri istehsalı və sərinləşdirici içkilər istehsal müəssisələrində hazırlanan məhsulların sorağı isə ABŞ, Rusiya, Almaniya, Polşa, BƏƏ, Çin, Yaponiya, Yeni Zelandiya, Malayziya, İsrail, Avstraliya, Türkmənistan, Tacikistan və s. dövlətlərdən gəlir.

Bu kimi faktlar çoxdur. Onların hamısını sadalamaqla oxucunu yormaq istəmirik. Təkcə onu demək kifayətdir ki, bütün bu inkişaf prosesləri qədim Qəbələni müasirləşdirib daha da gözəlləşdirməklə, dünyanı özünə cəlb etməyə nail olub. İndi ölkəmizdə gedən iqtisadi islahatlar, xüsusilə də qeyri-neft sektorunda həyata keçirilən bir-birindən dəyərli layihələr Qəbələnin aqrar həyatını da zənginləşdirir. Əlbəttə, özünün işgüzarlığı, təşəbbüskarlığı, dövlətimizin dəstəyi ilə yanaşı, dünyaya açılan pəncərələrdən axıb gələn iqtisadi gücün, zəngin təcrübənin sayəsində rayonun həyatında, xüsusilə də aqrar sahəsində, tikinti-quruculuğunda gedən işlərə, qazanılan uğurlara nəzər salsaq, bunu aydın görərik. Təkcə bu ilin ötən dövrü ərzində rayonda iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə 165.842 min manatlıq məhsul istehsal edilmişdir. Ötən ilin müvafiq dövrünə nisbətən ümumi məhsul buraxılışında artım sənayedə 22.003 min manat, kənd təsərrüfatında 1.116 min manat, tikintidə 14.314 min manat, nəqliyyatda 68 min manat, rabitədə 67 min manat, ticarətdə 2.192 min manat olmuşdur. 2003-cü ilin oktyabr ayından 2018-ci ilin oktyabrın 1-dək 15.990-ı daimi olmaqla, 17.789 yeni iş yeri açılmışdır. Onun da 1.083-ü təkcə bu ilin payına düşür.

Qazlaşma ilə əlaqədar dövlətin qarşıya qoyduğu vəzifələr burada layiqincə yerinə yetirilir. Rayonun Mıxlıqovaq və Kötüklü kəndlərinə qaz xəttinin çəkilişi başa çatdırılmışdır. 260 yeni abonentə təbii qaz verilərək, əhali abonentlərin ümumi sayı 18.357-ə çatdırılmışdır.

### Yeni yollar salınır, su bolluğu yaradılır

Rayonda yol infrastrukturunun daha da yaxşılaşdırılması istiqamətində də əhəmiyyətli işlər görülür.

Qədim tarixli Qəbələnin sorağını bu gün ölkəmizin və dünyanın müxtəlif ünvanlarına aparan yolları var. Beynəlxalq statuslu hava limanı, müasir standartlar səviyyəsində tikilən asfalt yolları iqtisadiyyatın güclənməsinə, bu gözəl məkanın dünyaya çıxışına, dünyanın buraya axınına böyük təkan edir. Bu il Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx yolu müasir qaydada yenidən tikilərək istifadəyə verilmişdir. Bu gün Qəbələyə dəmir yolu da çəkilir.

Yaşayış məntəqələrinin sel sularından qorunması və kənd təsərrüfatının suvarma suyu ilə təminatı məqsədilə suvarma kanallarının 407 min kubmetri lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 773 min kubmetr çay məcrası daş və qumdan təmizlənmiş, 228 kubmetr qabion, 1204 kubmetr daş beton bənd tikilmiş, 46 kubmetr bənd təmir edilmişdir. Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı rayonun Çarxana, Aydınqışlaq, Xırxatala, Yenikənd, Tövlə, Uludaş, Tikanlı kəndlərinin və Bum qəsəbəsinin hər birində bir ədəd olmaqla, cəmi 8 ədəd subartezian quyusunda qazma işləri başa çatmışdır.

Sosial sahələrin inkişafı daim diqqət mərkəzində saxlanılır. Bu il Qəbələ şəhərində 120 yerlik uşaq bağçası və körpələr evinin tikintisi, ikimərtəbəli ictimai yaşayış binalarında, Zərifə Əliyeva adına parkda əsaslı təmir işləri başa çatdırılmış, bir sıra yaşayış binalarının dam örtükləri əsaslı, Hacıalılı kənd uşaq bağçası isə cari təmir edilmişdir. Laza kəndində 80 yerlik ümumi orta və Zərgərli kəndində 56 yerlik modul tipli ibtidai məktəb binaları tikilib istifadəyə verilmiş, Bum qəsəbə və Zarağan kənd tam orta məktəblərinin dam örtükləri dəyişdirilmişdir. 160 çarpayılıq rayon mərkəzi xəstəxana kompleksində işlər davam etdirilmişdir.

### Dostluq, qardaşlıq, işgüzarlıq əlaqələri

İndi Qəbələ dünyanın bir sıra dövlətlərinin ayrı-ayrı şəhərləri ilə dostluq, qardaşlıq, işgüzarlıq əlaqələrindədir. Ukrayna Respublikasının Rovno vilayətini, Misir Ərəb Respublikasının Cənubi Sinay vilayətini, Rusiyanın Kislovodsk kurort şəhərini, Koreya Respublikasının Qyonqçu şəhərini, Belarus Respublikasının Qrodno şəhərini, Fransa Respublikasının Kan şəhərini, Polşa Respublikasının Qnezno, İsrail dövlətinin Yolneam şəhərlərini buna misal göstərmək olar. 2013-də Qəbələ MDB-nin mədəniyyət paytaxtı, “2010-2014-cü illər üçün xalq yaradıcılığı paytaxtları proqramı” çərçivəsində Azərbaycanın əfsanələr paytaxtı elan olunub, 2020-ci il üçün İslam dünyasının turizm paytaxtı seçilib.

Son illər Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı xeyli artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində geniş əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Bu ilin fevral ayında VI Beynəlxalq Multikulturalizm qış Məktəbinin 16 ölkədən olan iştirakçıları Qəbələnin Nic qəsəbəsinə səfər edib. Gəzinti zamanı udi xalqının tarixi ilə bağlı məlumatlar tələbələrin diqqətinə çatdırılıb. May ayında Qəbələ Stend və Ox Atıcılığı Kompleksində ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə Beynəlxalq Qran-Pri yarışları, iyun ayında rayonun Vəndam qəsəbəsi ərazisində “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə və ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyi”nə həsr edilmiş “Tarixin şanlı səhifələri” adlı VI Gənclər Festivalı, “Heydər Əliyev” konqres Mərkəzində isə “Gənc xilasedici” VI Beynəlxalq yarış və “Gənc xilasedici və yanğınsöndürən” VII Ümumrespublika birinciliyinin final mərhələsi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən respublikada keçirilən IX-XI sinif şagirdlərinin “Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində mart və noyabr aylarında ölkənin bir çox rayonlarından gələn məktəblilər Qəbələ rayonu ilə ətraflı tanış edilmişlər. Həmçinin, mart ayının 26-28-də rayonun məktəbliləri də həmin aksiyada iştirak edərək, Gəncə-Şəmkir-Göygöl rayonları ilə, noyabr ayında isə Quba-Qusar-Xaçmaz rayonları ilə tanış olmuşlar.

### Aqrar sahəyə qayğı ön plandadır

Qəbələdə son illər aqrar sahənin inkişafına da böyük diqqət göstərilir. Kənd təsərrüfatına göstərilən dövlət qayğısının artması nəticəsində rayonda həmin sahədə xeyli irəliləyiş nəzərə çarpır. İndi rayonda 7800 hektar bağ sahələri, 621 hektar üzüm plantasiyaları mövcuddur. Həm əhalinin bu məhsullara olan tələbatının ödənilməsi istiqamətində, həm də rayonda həmin sahələrin məhsullarını emal edən sənaye müəssisələrinin xammalla təchizatı baxımından meyvə və üzüm sahələrinin genişlənməsinə və məhsuldarlığın yüksəldilməsinə diqqət artırılmışdır.

Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxracyönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanılmalıdır. Bu baxımdan, fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonda əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuş və bu iş uğurla yerinə yetirilmişdir. Rayonda son illər barama və tütün istehsalına da başlanmışdır. Bu il 101 nəfər kümçü tərəfindən 9110 kiloqram barama istehsal edilmiş, 75 hektar sahədə tütün əkilmişdir.

“Bu gün Azərbaycan dünyada özünəməxsus layiqli yerini tutur”, — deyən ulu öndər Heydər Əliyevin uğurlu sosial, iqtisadi və siyasi strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilməsinin nəticəsidir ki, ölkəmiz dünyanın aparıcı dövlətləri ilə bir sırada addımlayır, yeni-yeni zirvələr fəth edir. Bunu sosial-iqtisadi həyatından qısa da olsa, söhbət açdığımız Qəbələnin timsalında aydın görürük. Bütün bunları hamı kimi, qəbələlilər də ölkə Prezidenti İlham Əliyev diplomatiyasının, yorulmaz siyasi fəaliyyətinin bariz nümunəsi kimi dəyərləndirirlər.

**Rasim AMANOV,**
**“Respublika”.**







